# FƏLSƏFƏ

**UOT 316**

## İBN XƏLDUN DÖVLƏT İDARƏÇİLİYİ HAQQINDA

**İ.Ə.RÜSTƏMOV, H.Q.CAVADOVA, Y.N.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***khormet53@mail.ru***

*İbn Xəldunu müasir tarixi elmlərin atası, siyasi nəzəriyyənin banisi hesab etmək olar. İbn Xəldunun fəlsəfi-sosioloji təlimi Şərq peripatetiklərinin yüksək rasionalizm ruhunun davamı olmuşdur.*

*İbn Xəldun elm tarixində ilk dəfə olaraq ictimai həyatın formalaşmasının inkişafını istehsalın inkişafı ilə izah edərək insanların məhsuldar fəaliyyətinin formalarının inkişafı prizmasından cəmiyyətin ən aşağı səviyyədən (barbarlıq səviyyəsindən) ən yuxarı səviyyəyə (sivilizasiya səviyyəsinə) inkişafı nəzəriyyəsini yaratmışdır.*

*O, ictimai inkişafın əsasını cəmiyyətin maddi bazasında görürdü və göstərirdi ki, səbəbiyyət qanununa uyğun olaraq cəmiyyətin və mədəniyyətin meydana gəlməsi, inkişafı, sonra isə çökməsi və qürubu labüddür. Obyektiv tarixi inkişaf ideyasını formula etmişdir.*

*Onun "Böyük tarix"ə "Giriş"i ("Müqəddimə") xüsusilə məşhurdur. Burada İbn Xəldun insan cəmiyyətlərinin, müxtəlif mədəniyyət və sivilizasiyaların təşəkkülü və inkişafına aid olan bir çox mövzuları öz müşahidələri və təhlilləri ilə əhatə etmiş, ədalətli siyasi idarəetməni vacib saymışdır.*

**Açar sözlər:** İbn-Xəldunun sosial-siyasi, fəlsəfi-sosioloji, ekonomik, hüquqi-siyasi baxışları, "Böyük tarix"ə "Giriş" "Müqəddimə" əsəri, idarəetmə formaları, elmi fəaliyyət, dövlət, ədalət, müasirlik

Öz dövrünün görkəmli mütəfəkkirlərindən biri olan İbn Xəldunun dünya elminin inkişafında böyük xidmətləri olmuşdur. İbn Xəldun güclü bir hafizəyə, işlək bir zehnə, parlaq bir zəkaya, sağlam bir mühakiməyə, iti məntiqi düşüncəyə malik bir şəxsiyyət olmuşdur. O, 1332-ci ildə Tunisdə doğulmuş, 1406-cı ildə Qahirədə vəfat etmişdir. Əsil-nəcabətli Tunis nəslindən olan İbn Xəldun fəaliyyətinə saray mirzəliyindən başlayaraq peşəkar siyasətçi olmuş, Şimali Afrika və Qranadada məsləhətçi, səfir, nazir vəzifələrində çalışmışdır. Tunis ilahiyyatçılarının ona göstərdikləri düşmən münasibət İbn Xəldunu Qahirəyə köçməyə məcbur etmişdir. O, burada baş qazi vəzifəsinə təyin

edilmişdir. 1374-cü ildə o, dövlət işlərindən uzaqlaşmış, 1382-ci ildə isə Misirə köçərək ömrünün sonuna qədər İslam hüququ tərəfdarlarının mədrəsəsində baş hakim (qazi) vəzifəsində çalışmışdır. Ömrünün sonuna yaxın o, qısa bir müddətdə Teymur Ləngin yanında çalışmışdır. 1400-cü ildə İbn Xəldun Teymur Ləng tərəfindən dəvət alır. Hökmdar Şimali Afrika və Misirin sosial və siyasi həyatı ilə maraqlanmış və İbn Xəlduna suallar vermişdir. İbn Xəldun Teymur Ləngin suallarına ətraflı cavab vermiş və öz mülahizələrini yazılı şəkildə də ona təqdim etmişdir. İbn Xəldun bu yazılarında bədəvi tayfalarının ictimai və sosial vəziyyətləri barədə ətraflı məlumat vermişdir.

İbn Xəldun bir alim kimi şöhrət tapmazdan əvvəl, şair və ədib kimi də fəaliyyət göstərmişdir. Sonralar o, dövlət fəaliyyəti və elmi fəaliyyətlə də məşğul olmağa başlayır. O, geniş müşahidə, dərin düşüncə, elmi təhlil və axtarışlar vasitəsilə dünyanın inkişaf qanunlarının dərk edilməsini təbliğ edən məşhur Şazili təriqətinin tərəfdarlarından olmuşdur. İbn Xəldun 43 yaşında ikən siyasətlə məşğuliyyətdən ayrılır, elmi fəaliyyətlə və öz nəzəriyyəsini şərh edən mühazirələrin oxunması ilə məşğul olmağa başlayır. Böyük siyasi təcrübəyə malik olan İbn Xəldun 1375-ci ildə dünya tarixini yazmağa başlayır. Bu baxımdan onun yeddi cildlik əhatəli, ibrətamiz örnək kitabı olan "Kitabul-İbar" əsəri olduqca əhəmiyyətlidir [9].

İbn Xəldun Roma Respublikasının mövcudluğu haqqında məlumata malik olan yeganə ərəb tarixçisi olmuşdur (başqaları isə Bizans mənbələrinə əsaslanaraq Romanın tarixini Sezardan başlayırdılar). O, nadir müəlliflərdən biri idi ki, özünün ərəb tərcümələrində latın və yəhudi mətnlərindən istifadə etmişdir. İbn Xəldunun son dərəcə bəsirətliliyi və orijinallığı onun "Böyük tarix"ə "Giriş"ində ("Müqəddimə"sində) aydınlaşır. Bu əsərdə İslam elmlərinin inkişafının yekunları, həmçinin özünün tarixə dair nəzəri yanaşması şərh edilir. İbn Xəldun bəşəriyyət tarixinin hadisələrinin ardıcıllığını sosioloji baxımdan nəzərdən keçirir, köçəri və oturaq həyat tərzləri arasındakı ziddiyyəti göstərir, qidaya, evə və təhlükəsizliyə olan sosial və siyasi tələbatın mənşəyini və inkişafını açıqlayır, dövlətlərin əmələ gəlməsi və inkişafının əsasında duran irqi və milli hərəkətverici qüvvələri təhlil edir, müxtəlif növ siyasi institutları diqqətlə müəyyənləşdirərək onların inkişafının, süqutunun və məhv olmasının səbəblərini aydınlaşdırırdı. İctimai quruluşun əsaslarının öyrənilməsi cəhdlərinin İslamdan qabaqkı dövrlərdə də olmasına baxmayaraq İbn Xəldun bu problemə dair tamamilə yeni yanaşma yaratmış, insanların davranışlarına və işlərinə Allahın qarışmasını inkar etməmiş, lakin öz tədqiqat predmetində bunu nəzərə almamış, ümumilikdə isə rasional nöqteyi-nəzərdən çıxış etmişdir. Avropada İbn Xəldunun əsərlərinə XIX əsrin əvvəllərindən başlayaraq dəyər verilməyə başlanılmışdır [2; 4; 6].

İbn Xəldunun məşhur "Müqəddimə" ("Giriş") əsərində dövlət və siyasət haqqında nəzəriyyəsinin fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, ümumi tarixi-sosioloji təhlillə dövlətlərlə bağlı olan fəlsəfi və hüquqi yanaşmaları birləşdirirdi. O, hər şeydən əvvəl, dövlətin təşəkkülünün, inkişafının,

süqutunun "təbii qanunları"nı aşkara çıxarmağa çalışırdı. Beləliklə, o, bunları "sivilizasiya"nın göstəricisi, forması, meyarı və təzahürü kimi səciyyələndirirdi. İbn Xəldun nəzəriyyəsinin digər xarakterik xüsusiyyəti ideal deyil, real mövcud olan müsəlman dövlətini öyrənmək idi, çünki həmin dövrdə hökmdarlar öz siyasətlərində müsəlman hüququndan çox uzaqlaşmışdılar. Bunun əsasında da o, xilafətin tarixi təkamülünü tədqiq edə bilmiş və orijinal idarəçilik formalarının təsnifatını işləyib hazırlamışdır.

Klassik müsəlman siyasi-hüquqi fikrində müsəlman dövlətinin məzmun və mahiyyətinə müəyyən diqqət ayrılırdı, xilafətə siyasi idarəetmə rejimi və forması kimi baxılırdı, əsas diqqət dövlət aparatının təhlilinə yönəldilirdi. Xilafət dövlət forması kimi, əslində bütün müsəlman siyasi konsepsiyalarının mərkəzi mövzusuna çevrilmişdi. Müxtəlif dövrlərdə digər dövlət formaları və siyasi rejimlərində icra hakimiyyəti və müsəlman dövlətinə rəhbərlik formalarının müqayisəsi əsasında müsəlman siyasi fikrində XIV əsrin görkəmli mütəfəkkiri İbn Xəldunun adı ilə bağlı olan idarəetmə formalarının təsnifatı işlənilib hazırlandı [6; 7; 14; 15; 16].

İbn Xəldunun nəzəriyyəsinə görə, hər bir cəmiyyət insan təbiətinə görə "dayandırıcı başlanğıc"a (nəfsi saxlamaq, səbr etmək) ehtiyac duyur, bu insanların təcavüzə və qarşılıqlı məhvə olan "təbii" cəhdlərinin qarşısını almaq üçün lazımdır. Belə məcburi hakimiyyət dövləti sadə qəbilə "başçılığı"ndan fərqləndirir, bu və ya digər xalqın nail olduğu mədəniyyət səviyyəsinin göstəricisi olur. Dövlət cəmiyyət üzvlərini özünə tabe etdirir, öz vətəndaşları və xarici aləm üzərində məcburi hakimiyyətini tətbiq edir. Bu hakimiyyətin "daxili" tərəfi hökmdarın mütləq hakimiyyətidir: vətəndaşları idarə etmək, qanunları tətbiq etmək, dövlət daxilində qayda-qanunu təmin etmək, vergiləri yığmaq və ordu təşkil etmək gücünə malik olması. Xarici sahədə dövlətin hakimiyyəti onun hər hansı digər hakimiyyətə və ya məcburiyyətə tabe olmasında təzahür edir [5; 11; 12].

İbn Xəlduna görə dövlət siyasəti ancaq hökmdarların iştirakı ilə məhdudlaşdırılmamalıdır, həm də burada bütün vətəndaşların iştirakı nəzərdə tutulmalıdır. Buna görə də, dövlət sahəsində olan bütün dəyişikliklər yalnız dövlət başçısının vəziyyətinə deyil, həm də bütün cəmiyyət üzvlərinin vəziyyətinə təsir edir. Dövlət üç nəslin yaşı ilə müəyyən olunan müvəqqəti mövcudluq dövrünə malik olur. Bu müddət ərzində dövlət beş inkişaf mərhələsi keçir: 1) əvvəlki hakimiyyətin əvəzinə yeni məcburi hakimiyyətin əmələ gəlməsi; 2) hökmdarın hakimiyyətə gəlməsi zamanı ona kömək göstərən silahdaşlarını cəzalandıraraq ali hakimiyyəti öz əlinə alması; 3) qayda-qanunun, sakitliyin və inamın hökm sürdüyü dövlətin inkişafı; 4) müxalifəti susdurmaq üçün zorakılığa və qəddar üsullara əl atmaq; 5) dövlətin tənəzzülü və məhvi.

İbn Xəldun yalnız dövlətin inkişaf mərhələlərini nəzəri müstəvidə araşdırmır, həm də xilafətin tarixi təkamülünü, monarxiyaya (mütləq hakimiyyətə) çevrilməsinin təhlilinə öz nəzəriyyəsini tətbiq etməyə çalışırdı. Xilafətin monarxiyaya çevrilməsinin əsas səbəbini, o, müsəlmanları birləşdirərkən

“qılıncın inamı əvəz etməsində” görürdü. Əgər əvvəlki dövrlərdə xilafət monarxiyaya xas olan xüsusiyyətlərdən məhrum idisə, müsəlman dövlətinin hakimiyyət forması tədricən xilafət və monarxiyaya xas olan xüsusiyyətləri özündə ehtiva edərək sonda tamamilə monarxiyaya çevrilmişdir [3, 89-91].

İbn Xəldunun fikrincə müsəlman dövləti öz inkişafında dörd mərhələdən keçmişdir: ədalətli xəlifələrdən ibarət tam (“xalis”) xilafət; xilafətin xarici atributlarını saxlamaqla tədricən monarxiyaya (mütləq hakimiyyətə) keçid, “inam”ın tədricən “güc”lə əvəz olunması, xilafətin “məsləhətxanaları” və müqavilələri isə öz yerini qılınca və qəddar (istibdad) idarəetmə üsullarına (Müaviyədən Abbasilər xilafətinin başlanmasına qədər) verirdi; “xilafət” adını saxlamaqla dövlətin mahiyyətcə monarxiyaya çevrilməsi (Abbasilər xilafəti); vahid müsəlman dövlətinin süqutu və ərəblərin digər xalqlar tərəfindən istilası, bu zaman dövlət hətta rəsmi olaraq xilafət adlanmır və dövlət başçısı müctəhid ola bilmir [5].

İbn Xəldun idarəetmə formalarının üç növünü fərqləndirirdi: “təbii” monarxiya, “siyasi” monarxiya və xilafət. Onun fikrincə, “təbii” monarxiyanın mahiyyəti hökmdarın öz şəxsi mənfəətlərinə görə rəiyyətlərini idarə etməsidir. Başqa sözlə desək, “təbii” monaxiya subyektiv maraq daşıyan qəddar hakimiyyət rejimidir. “Siyasi” monarxiya səmərəli, “ağıllı” meyarlara əsaslanan, “düşüncəli” siyasət yeridən və rəiyyətə “ziyan” vuran hər şeyə qarşı müqavimət göstərən idarəetmə üsuludur. İbn Xəldun bu üsulu iki cür qiymətləndirirdi: bir tərəfdən, onun müsbət xüsusiyyətlərini (“səmərəli” ədalətin yerinə yetirilməsini) qeyd edirdi, digər tərəfdən, hökmdarların siyasətinin dini dəyərlərlə əlaqələndirilmədiyini tənqid edirdi. Xilafət idarə üsulu isə idarəetmədə bu çatışmazlığı aradan qaldırırdı, xəlifənin rəiyyət üzərindəki hakimiyyəti müsəlman hüququna istinad edirdi və eyni zamanda inama, dünyəvi işlərin yerinə yetirilməsinə istiqamətlənirdi. Başqa sözlə, xilafətin “qanunu” müqəddəs müsəlman hüququnun əsaslarına istinad edirdi, burada bütün vətəndaşların maraqları istisnasız olaraq mükəmməl şəkildə nəzərə alınırdı. İbn Xəldun, təbii ki, dövlət idarəçiliyində dini və dünyəvi dəyərləri özündə birləşdirən xilafət üsul – idarəsinə üstünlük verirdi.

İbn Xəlduna görə, monarxiyanın suverenliyi onun məcburi gücündə idisə, xilafətin suverenliyi isə onun ali ədaləti özündə təcəssüm etdirən müsəlman hüququnda idi. Monarx, rəiyyətlər üçün “yad” bir hökmdar idi, o, dövləti ancaq məcburi hakimiyyətlə idarə edirdi. Xəlifə isə “öz” dövlət başçısı idi, o, öz siyasətində müsəlman hüququnun ədalətinə ümumi inamı əsas tuturdu.

İbn Xəldunun elmi fəaliyyətinin əsas istiqamətlərindən biri sivilizasiyaların inkişaf və tənəzzül səbəblərini təhlil etmək idi. İbn Xəldun xalqların və dövlətlərin qanunauyğun müntəzəm böhranlardan və tənəzzüldən xilasının sehrli açarını tapdığını iddia etməyərək ictimai-siyasi və iqtisadi sabitliyi möhkəmləndirməyə, millətlərin inkişafını təmin etməyə və vaxtsız iqtisadi iflasdan, dövlətlərin və sivilizasiyaların siyasi tənəzzülündən xilas olmağa kömək edən müəyyən tövsiyələr verir:

1) mülkiyyət hüququnun və azad sahibkarlığın dəqiq müəyyənləşdirilməsi və müdafiəsi;

2) ədalətin bərqərar olunması üçün qanunun mövcudluğu və məhkəmə sisteminin etibarlılığı;

3) ictimai təhlükəsizlik və ticarət əlaqələrinin təhlükəsizliyi;

4) məşğulluğun, məhsuldarlığın və gəlirlərin artırılması üçün vergilərin azaldılması;

5) bürokratik aparatın və müzdlu ordunun ixtisarı və eyni zamanda onların səmərəliliyinin artırılması;

6) istehsal, ticarət və kommersiya fəaliyyətinə dövlət müdaxiləsinin məhdudlaşdırılması;

7) qiymətlər üzərində dövlət nəzarətinə yol verilməməsi;

8) dövlətin köməyi ilə bazarın inhisara alınmasına imkan verilməməsi;

9) hakimiyyətdən asılı olmayan, pulların dəyərləri ilə alver etməyə imkan verməyən ardıcıl pul siyasətinin həyata keçirilməsi;

10) əhalinin artımı ilə bazarın ixtisaslaşma dərəcəsinin artırılması;

11) azad fikrin və fəaliyyətin inkişafını təmin edən yaradıcı təhsil sisteminin inkişaf etdirilməsi;

12) yaxşi əməlləri mükafatlandıran və qüsurların qarşısını alan ədalətli ictimai sistemin müəyyənləşdirilməsi üçün kollektiv məsuliyyət və daxili ədalət hissinin təbliği [8; 13; 17].

Beləliklə, İbn Xəldun öz tövsiyələri ilə insanın iqtisadi fəaliyyətini həm ədalətsiz, vicdansız rəqiblərdən, inhisarçılardan, həm də dövlətin səriştəsiz, natəmiz məmurlarının müdaxilələrindən təcrid etməyə çalışırdı.

Mömin, dindar və Allahdan qorxan müsəlman olan İbn Xəldun ictimai rifah və ədalət işlərinə daha çox diqqət ayırırdı. İctimai və xüsusilə, sosial-iqtisadi sahədə ədalətə gəlincə, İbn Xəldun təsdiq edirdi ki, millətin yeganə inkişaf yolu “ədalətlilikdir”. İctimai ədalət anlayışını İbn Xəldun Qurana əsaslanaraq “ədalətin insanlar arasındakı münasibətlərdə bir tarazlıq forması olduğunu” aşkara çıxarır [1; 10].

İnsan hüquqlarını pozanları, ədalətsizlik etdiklərini Quran ayələrinə istinad edərək, İbn Xəldun iqtisadi sahədə də bu ədalətin mahiyyətini açıqlayır: “Mülkiyyət hüququnu pozanlar ədalətsizlik edirlər... Başqasının mülkünü zorla mənimsəyənlər ədalətsizlik edirlər... Ədalətsiz vergi yığanlar ədalətsizlik edirlər...” [8; 10; 14; 17]. Sonda İbn Xəldun Allahın Yer üzərində bərqərar etdiyi əsas ictimai qanunlardan birini son dərəcə dəqiq ifadə edir: “ədalətsizlik sivilizasiyanı məhv edir”.

Beləliklə, İbn Xəldunu müasir sosial elmlərin atası, siyasi nəzəriyyənin banisi hesab etmək olar. İbn Xəldun öz fəlsəfi-sosioloji təlimi ilə Şərq peripatetiklərinin yüksək rasionalizm ruhunu davamı etdirmişdir.

İbn Xəldun elm tarixində ilk dəfə olaraq ictimai həyatın inkişafını istehsalın inkişafı ilə izah edərək insanların məhsuldar fəaliyyətinin formalarının inkişafı prizmasından cəmiyyətin ən aşağı səviyyədən (barbarlıq səviyyəsin-

dən) ən yuxarı səviyyəyə (sivilizasiya səviyyəsinə) inkişafı haqqında nəzəriyəsini yaratmışdır.

İbn Xəldun hökmran dini ideologiyanın və ənənənin əksinə, təbii qanunlarla yanaşı, cəmiyyətin özünün obyektiv inkişaf qanunlarından da asılı olaraq, dövlətin inkişafı haqqında ideyanı təsdiq edə bilmişdir. O, ictimai inkişafın əsasını cəmiyyətin maddi bazasında görürdü və göstərirdi ki, səbəbiyyət qanununa uyğun olaraq cəmiyyətin və mədəniyyətin meydana gəlməsi, inkişafı, sonda isə çökməsi və qürubu labüddür. O, bununla da obyektiv tarixi inkişaf ideyasını formula etmişdir [13; 17].

Dahi müsəlman mütəfəkkiri İbn Xəldun və digər müsəlman alimləri bəşəriyyətin inkişafına əvəzsiz töhvələr vermişlər. Onun "Böyük tarix"ə "Giriş"i ("Müqəddimə") əsəri xüsusilə məşhurdur. Burada İbn Xəldun insan cəmiyyətlərinin, müxtəlif mədəniyyət və sivilizasiyaların təşəkkülü və inkişafına aid olan bir çox mövzuları öz müşahidələri və təhlilləri ilə əhatə etmiş, ədalətli siyasi idarəetməni vacib saymışdır. Onun əsərləri, öz dövründə və bütün dövrlərdə olduğu kimi, bu gün də böyük əhəmiyyətə malikdir və aktualdır.

## ƏDƏBİYYAT


1. Hacızadə Elşən. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006 (Elektron variant).
2. Mədətoğlu Aydın. Türklər (tarixi oçerklər). Bakı, 2012 (Elektron variant).
3. Rüstəmov Yusif. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: Azərbaycan Universiteti, 2000, s.300.
4. Араби Б. Ибн-Халдун – Основоположник арабской социологии // Социологические исследования. 1990, №11, с. 107-109.
5. Бартольд В. Работы по истории ислама и арабского халифата М., 2002. с.184.
6. Бациева С. Историко-социологический трактат Ибн Халдуна «Мукаддима». М.: Наука, 1965, 426 с.
7. Ибн Халдун. Введение (фрагменты). - В кн.: Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока IX-XIV вв. М., 1961, с.245.
8. Ибн-Халдун. Пролегомены к «Книге поучительных примеров и дивану сообщений о днях арабов, персов и берберов и их современников, обладавших властью великих размеров» // Мировая экономическая мысль: Сквозь призму веков: В 5 т. Т.1: От зари цивилизации до капитализма / Ред. Г.Г.Фетисов; Моск. гос. ун-т им. М.В.Ломоносова. Благотвор. фонд «Благосостояние для всех». М.: Мысль, 2004, 718 с. (250 лет Московскому Государственному Университету им. М.В.Ломоносова).
9. Игнатенко А.А. Ибн-Халдун. М.: Мысль, 1980, 160 с.
10. Коран / Пер. и ком. И.Ю.Крачковского. Баку: Язычы, 1990, 774 с.
11. Коротаев А.В. Долгосрочная политико-демографическая динамика Египта: Циклы и тенденции. М.: Восточная литература, 2006, с.174-198.
12. Очерки истории арабской культуры (V–XV вв.). М.: Наука, 1982, с.145.
13. Очерки распространения исламской цивилизации в 2 т. М., 2002.
14. Розов Н.С. Закон Ибн Халдуна // Политический класс. 2006, №16.
15. Семенов Ю.И. Философия истории. М.: Мысль, 2003.
16. Смирнов А.В. Ибн Халдун и его «новая наука» / Историко-философский ежегодник. 2007. М., 2008, 530 с.
17. Фомина Д.В. Власть и государство в философии Ибн Халдуна. Автореферат на соискание ученой степени кандидата философских наук. М.: Мысль, 2003, с.28.

## ИБН-ХАЛДУН ОБ УПРАВЛЕНИИ ГОСУДАРСТВОМ

**И.А.РУСТАМОВ, Х.Г.ДЖАВАДОВА, Я.Н.АЛИЕВА**

### РЕЗЮМЕ

Ибн-Халдуна можно считать отцом современной исторической науки, основателем политической теории. Философско-социологическое учение Ибн-Халдуна являлось в действительности продолжением высокого духа рационализма восточных перипатетиков.

Ибн-Халдун впервые в истории науки создал теорию поступательного развития общества от низшей ступени (варварства) к высшей (цивилизации) через развитие форм производительной деятельности людей, объясняя развитие форм общественной жизни развитием производства.

Он увидел основу общественного развития в ее материальной базе и показал неизбежность возникновения, развития, а позже спада и заката общества и культуры в соответствии с законом причинности, иначе говоря, сформулировал идею объективного исторического развития.

Особенно знаменито его «Введение» («Мукаддима») к «Большой истории», в котором Ибн Халдун охватил своими наблюдениями и анализом многие темы, касающиеся закономерностей становления и развития человеческих обществ, различных культур и цивилизаций, начал справедливого политического управления.

**Ключевые слова:** социально-политические, философско-социологические, экономические политико-правовые взгляды Ибн Халдуна, «Введение» к «Большой истории», управленческие формы, научная деятельность, государство, справедливость, современность

## Ibn-Haldun about State Administration

**İ.A.RUSTAMOV, H.G.JAVADOVA, Y.N.ALIYEVA**

### SUMMARY

Ibn Haldun can be considered the founder of modern history, political theory. Ibn Haldun's philosophical-sociological training was a continuation of Eastern peripatetics' spirit of rationalism.

Ibn Haldun was historian the first to explain the development of the society from its lowest srages to the highest (civilization) through the forms of development of people's productive activity.

.

He valued social development on the basis of the material base of the society.

**Key words:** Ibn Haldun's socio-political, philosophical, economic views, legal and political views, forms of governance, scientific activity, state, justice, contemporary, «Great History» in the «Introduction».